# Medal şəhidin ailəsinə təqdim edildi

**Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə hərbçilərin xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri adlara layiq görülüb, orden və medallarla təltif olunmuşdur.**



Naftalan şəhərində də, Talış kəndi ərazisindəki adsız yüksəkliklərin alınması uğrunda gedən döyüşlər zamanı şəhid olmuş Naftalan şəhər sakini Bayramov Vaqif Dilqəm oğlunun “Hərbi xidmətdə fərqlənməyə” görə 3-cü dərəcəli medalı ilə təltif olunması münasibəti ilə təqdimetmə mərasimi keçirilmişdir. Mərasimdə Naftalan Şəhər İcra Hakimiyyəti başçısı Natiq Aslanov, Müdafiə Nazirliyinin əməkdaşı Rasim Əliyev, şəhidin ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak edirdi.

İlk öncə mərasimdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunmuş, ruhlarına dualar oxunmuşdur. Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov bölgənin ən qüdrətli ordusuna çevrilən Azərbaycan Silahlı Qüvvələrinin aprelin əvvəllərində düşmənə sarsıdıcı zərbə endirdiyindən, hərbçilərimizin şücaətindən, fədakarlığından söz açaraq, naftalanlı şəhid, kapitan Vaqif Bayramovun şərəfli həyat yolundan, təmas xəttində ömrünün sonuna qədər vuruşaraq göstərdiyi şücaətlərdən ətraflı danışdı.

Çıxışlarda şəhidin mənalı ömür yolundan qürurla söhbət açıldı. Medal şəhidin azyaşlı oğlu Ümid Bayramlıya təqdim edildi. Şəhidin valideynləri oğlanları ilə fəxr etdiyini, qürur duyduğunu ifadə edərək, göstərilən diqqət və qayğıya, şəhidlərin xatirələrini həmişə əziz tutduqlarına, onların Vətən qarşısında xidmətlərini yüksək qiymətləndirdiklərinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**